AZƏRBAYCAN RESPUBLİKASININ
ENERGETİKA NAZİRLİYİ

# ƏMR

№ 08

Bakı şəhəri "23" yanvar 2018 il

**Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən icazələrin "ASAN Xidmət" mərkəzləri vasitəsilə verilməsinin təşkili haqqında**

Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən sahibkarlıq fəaliyyətinə icazələrin verilməsində şəffaflığın artırılması, onların verilmə prosesinin asanlaşdırılması üçün "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa 3 nömrəli əlavənin 9-11-ci bəndlərində nəzərdə tutulmuş "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazənin, "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə icazənin və ixrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamənin (bundan sonra – icazələr) "ASAN Xidmət" mərkəzləri vasitəsilə verilməsinin təşkili məqsədilə

ƏMR EDİRƏM:

**1.** 2018-ci il 1 fevral tarixindən icazələrin "ASAN Xidmət" mərkəzləri vasitəsilə verilməsi təşkil edilsin.

**2.** İqtisadiyyat şöbəsinə tapşırılsın:

**2.1.** "ASAN Xidmət" mərkəzində növbəlilik prinsipi əsasında xidmət göstərəcək şöbənin iki nəfər əməkdaşı barəsində təklifləri iki gün müddətində təqdim etsin;

**2.2.** icazələrin verilməsi üçün tələb olunan sənədlərin müvafiq normativ hüquqi akta istinad edilməklə hazırlanmış siyahısını və şöbənin iki nəfər əməkdaşının "ASAN

Xidmət" mərkəzində xidmət göstərməsi üçün növbəlilik qrafikini hazırlayıb təqdim etsin.

**3.** Maliyyə və təminat şöbəsinə tapşırılsın:

**3.1.** İqtisadiyyat şöbəsinin iki nəfər əməkdaşının "ASAN Xidmət" mərkəzində xidmət göstərməsi üçün zəruri şərait yaradılması, vətəndaşlardan qəbul edilmiş sənədlərin operativ şəkildə nazirliyə daşınması (nəqliyyat vasitəsinin ayrılması) təmin etsin;

**3.2.** bu əmrdən irəli gələn digər maliyyə və təminat məsələləri həll etsin.

**4.** İctimaiyyətlə əlaqələr və informasiya texnologiyaları şöbəsinə və İqtisadiyyat şöbəsinə tapşırılsın ki, icazələrin verilməsinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 615 nömrəli qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Lisenziya və ya icazə verən orqanların lisenziya və ya icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsini təmin etmək üçün son müddətlər"in 4-cü bəndinə uyğun olaraq 2018-ci il 1 may tarixinədək zəruri tədbirlərin görülməsi təmin edilsin.

**5.** Ümumi şöbə bu əmrin nazirliyin aparatının aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.

**6.** Əmrin icrasına nəzarət nazir müavini Samir Vəliyevə həvalə olunsun.

**Nazir** **Pərviz Şahbazov**